# *Əziz ƏLƏKBƏRLİ:* "Qərbi azərbaycanlılar 38 il əvvəl Ermənistanın qanuni vətəndaşları olublar"

**"İkiəsrlik Azərbaycan-Ermənistan məsələsinin hələ də niyə bitmədiyini tam anlamaq üçün bunun köklərinə baxmaq olduqca vacibdir. Bildiyiniz kimi, Ermənistanın təkcə siyasi dairələrində yox, eyni zamanda ictimaiyyəti arasında da radikal milliyyətçilik hələ də davam etməkdədir. Ermənistanın hələ də Azərbaycana, Türkiyəyə, Gürcüstana, yəni region dövlətlərinə qarşı ərazi iddialarından əl çəkmək fikri yoxdur. Ermənistanın Konstitusiyasında dəyişikliyin edilməsi, Minsk qrupunun buraxılması, Qərbi Azərbaycandan qovulan həmvətənlərimizin öz ata-baba yurdlarına qayıtmaları kimi Azərbaycanın haqlı tələbləri istiqamətində addımlar atmaması təbii olaraq sülh sazişinin də bağlanmasını gecikdirir".**




Bu sözləri AZƏRTAC-a Qərbi Azərbaycan İcmasının rəhbəri, Milli Məclisin deputatı Əziz Ələkbərli ifadə edib.

"Bizim məqsədimiz ermənilərin siyasi riyakarlığının mahiyyətini geniş ictimaiyyətə çatdırmaqdır. Çox təəssüf ki, bu gün belə Ermənistanın siyasi dairələri Qərbi Azərbaycan qaçqınlarının öz ata-baba yurdlarına qayıtmasını dünya ictimaiyyətinə Azərbaycanın onlara qarşı ərazi iddiası kimi çatdırmağa çalışır. Halbuki bu, qətiyyən belə deyil. Ermənilər unudurlar ki, Qərbi Azərbaycandakı öz ata yurdlarına qayıtmaq istəyən soydaşlarımız 38 il bundan əvvəl elə həmin Ermənistanın qanuni vətəndaşları olublar. Yəni Qarabağ münaqişəsinin ilk mərhələsində bu məsələnin tərkib hissəsi kimi doğma torpaqlarından qovulan insanların öz evlərinə geri qayıtması heç bir şəkildə hansısa ərazi iddiası sayıla bilməz. Ermənistan rəhbərliyi bütün bunlardan, nəhayət, nəticə çıxarmalıdır. Biz isə dünya ictimaiyyətinin erməni yalanları, saxtakarlıqlarından tam agah olması üçün çalışırıq", - deyə icma sədri bildirib.

Antalyada keçirilən IV Diplomatiya Forumunda Qərbi Azərbaycan İcmasının sədri olaraq iştirakı barədə danışan deputat bununla bağlı həqiqətləri tədbir iştirakçılarına, daha geniş ictimaiyyətə çatdırmağa çalışdıqlarını qeyd edib.

Forum çərçivəsində keçirilən panel iclasda Qərbi Azərbaycan həqiqətlərinin ilk növbədə insan hüquqları məsələsi olması ilə bağlı çıxış edən sədr deyib: "Çox təəssüf ki, biz son 200 il ərzində Qərbi Azərbaycanda baş verən hadisələri, ermənilərin həmin bölgələrdə apardıqları etnik təmizləmə, deportasiya, soyqırımı hadisələrini dünya ictimaiyyətinə lazımi qədər çatdıra bilməmişik. Yaradıldığı gündən icmamız bu istiqamətdə xeyli işlər görüb. Bu məsələnin Antalya Diplomatiya Forumu kimi dünya miqyaslı, mötəbər tədbirlərin gündəliyinə salınması bizim çox böyük uğurumuzdur. Çünki hədəflərimizdən biri də beynəlxalq ictimaiyyəti Qərbi Azərbaycan həqiqətləri barədə daha çox məlumatlandırmaqdır. Forumun bu baxımdan əhəmiyyətli olacağına inanıram. Xüsusilə xarici ölkə parlamentlərinin bu məsələyə isti münasibət göstərməsi özözlüyündə bir uğurdur".

---

Azərbaycan.- 2025.- 13 aprel (№ 72).- S.5.